*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

15 dekabr 2023-cü il №48 (9056) www.muallim.edu.az muallim@edu.gov.az

# BU GÜN AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XVI QURULTAYI ÖZ İŞİNƏ BAŞLAYIR



**Heydər ƏLİYEV, Ümummilli Lider**

*"Mən hesab edirəm ki, müstəqil Azərbaycanın birinci müəllimlər qurultayı ölkəmizin təhsilinin gələcəyi və ümumiyyətlə, Azərbaycanın gələcəyi üçün mühüm bir mərhələdir. Bizim və sizin - hamımızın vəzifəmiz ondan ibarətdir ki, bu qurultayda irəli sürülən fikirlər, təkliflər həyata keçirilsin və Azərbaycanda təhsil daha da yüksəlsin".*

**15-16 dekabr tarixlərində Bakı Konqres Mərkəzində Azərbaycan müəllimlərinin XVI qurultayı keçiriləcək.**

İki gün davam edəcək qurultayın birinci günündə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili", "İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış"", "Azərbaycan dili yeni çağırışlar müstəvisində", "Rəqəmsallaşma, süni intellekt və təhsilin transformasiyası", "Ümumi təhsilin məzmununa müasir yanaşmalar", "Ümumi təhsilin idarə olunmasına müasir yanaşmalar", "Peşə təhsili və gələcək üçün bacarıqlar", "Müəllim hazırlığı və müəllimlərin peşəkar inkişafının prioritet məsələləri", "Elm və ali təhsilin inteqrasiyası", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi: inklüziv, inteqrasiyalı və xüsusi təhsil", "Məktəbəqədər təhsilin məzmunu və əhatə dairəsinin genişləndirilməsi" mövzularında panel sessiyaları keçiriləcək.

Qurultayın ikinci günündə isə "Heydər Əliyev adına təqaüd"ə layiq görülmüş tələbələrlə görüş", "İbtidai təhsildə öyrənmə və öyrətmə müxtəlifliyi", "Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisinə yeni yanaşmalar", "Müasir dövrdə təbiət fənlərinin tədrisi", "Müasir dövrdə riyaziyyat fənninin tədrisi", "Tarix və coğrafiya fənlərinin tədrisinə yeni baxış", "Xarici dillərin öyrənilməsi: yeni imkanlar", "İncəsənət, texnologiya və fiziki tərbiyə fənlərinin kamil şəxsiyyətin formalaşmasında rolu", "İnnovativ layihələr: STEAM, "Rəqəmsal bacarıqlar" və s. mövzularında panellər olacaq.

Qeyd edək ki, Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib. Qurultay ənənəvi olaraq 5 ildən bir təşkil edilir.